

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 182 (23.344)

28 sentyabr 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Fransa Respublikasının ölkəmizdəki səfirliyinə gələrək, Fransanın sabiq Prezidenti, görkəmli dövlət xadimi Jak Şirakın vəfatı ilə əlaqədar başsağlığı veriblər.

Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qros Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşılayıb.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fransanın sabiq Prezidenti Jak Şirakın vəfatı ilə əlaqədar başsağlığı verib, matəm kitabına ürək sözlərini yazıblar.

Səfirlə söhbət edən Prezident İlham Əliyev deyib: Cənab səfir, bizim başsağlığımızı qəbul edin. Prezident Şirak Azərbaycanın yaxın dostu olmuşdur. Biz onu mənim atamla şəxsi dostluğu başlayan dövrdən tanıyırıq və onların birgə səyləri nəticəsində ölkələrimiz arasında çox yaxın tərəfdaşlıq münasibətləri qurulmuşdur. Biz onunla görüşlərimizi xatırlayırıq. Bildiyiniz kimi, mən ilk dəfə Prezident seçiləndə xaricə etdiyim ilk rəsmi səfər Fransaya olmuşdur. O vaxt Prezident Şirak məni rəsmi səfərə dəvət edən ilk xarici dövlət başçısı olmuşdur və bu, bizim əməkdaşlığın çox yaxşı göstəricisi idi.

Səfir Zakari Qros deyib ki, Prezident Makron və Fransa xalqı adından səmimi sözlərinizi və burada olmağınızı yüksək qiymətləndirdiyimizi bildirmək istəyirəm. Sizin də qeyd etdiyiniz kimi, Prezident Şirak Fransada və beynəlxalq arenada birləşdirici rol oynayaraq sülhü təşviq etmiş dövlət xadimi olmuşdur. Gəlişiniz bizi təsirləndirdi, Sizə minnətdaram.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində media nümayəndələri ilə görüş keçirilmişdir





Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun müşahidə şurasının ilk iclası və media nümayəndələri ilə görüş keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbiri açaraq demişdir ki, 2019-cu il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmış, fondun nizamnaməsi və müşahidə şurasının üzvləri təsdiq olunmuşdur. Ali Məclisin Sədri müşahidə şurasının üzvlərini media nümayəndələrinə təqdim etmiş və üzvlər arasından müşahidə şurasına sədr seçilməsi üçün Ali Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Hüseynli Ülvi Mötəbər oğlunun təklif olunduğunu bildirmişdir. Təklif müşahidə şurası üzvləri tərəfindən qəbul olunmuşdur.

Ali Məclisin Sədri demişdir ki, mətbuat hər bir ölkənin həyatında vacib sahədir. Muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafı ilə bağlı görülən işlər mühüm əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da zamanın tələbi idi. Görülən işlər onu deməyə əsas verir ki, bu gün muxtar respublikada sağlam mətbuat formalaşmışdır. İstər yaradılan maddi-texniki baza, istərsə də jurnalist kadrların hazırlanması sahəsində görülən işlər qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün geniş imkanlar açır. Bu gün blokada şəraitində yaşayan muxtar respublikanın inkişafı, zəngin tarixi-mədəni irsi və turizm potensialı, ümumilikdə, Naxçıvan həqiqətləri kütləvi informasiya vasitələri tərəfindən geniş ictimaiyyətə təqdim olunur. Çünki düzgün informasiyaların yayılması, səmərəli təbliğat və təşviqat mexanizminin müəyyənləşdirilməsi medianın əsas fəaliyyət istiqamətidir. Bu gün muxtar respublikanın inkişafını təmin edənlər və bu işin təbliğatçısı olan media nümayəndələrinin birgə fəaliyyəti Naxçıvanın müasir inkişaf tarixini yaradır.

Ali Məclisin Sədri səmərəli fəaliyyətlərinə görə muxtar respublikanın kütləvi informasiya vasitələrinin əməkdaşlarına təşəkkür etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli çıxış edərək demişdir ki, muxtar respublikada kütləvi informasiya vasitələrinin maddi-texniki bazalarının gücləndirilməsi tədbirləri hər il diqqət mərkəzində saxlanılır. 2018-ci ildə dövlət teleradiosuna, "Şərq qapısı", şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manatdan artıq olan müxtəlif avadanlıqlar alınmışdır. 2019-cu ildə də muxtar respublikanın kütləvi informasiya vasitələrinin fəaliyyətinin təşkili sahəsində mühüm işlər görülmüş, teleradio və qəzetlərin maddi-texniki bazaları gücləndirilmişdir. Naxçıvan Dövlət Televiziyasının "Xəbərlər" redaksiyasının çəkiliş studiyası yenidən qurularaq istifadəyə verilmişdir. Həmçinin Naxçıvan Dövlət Televiziyasına yeni çəkiliş avadanlıqlarının alınması məqsədilə müqavilə imzalanmışdır. Nuhçıxan İnformasiya Agentliyinin və "Şərq qapısı" qəzetinin internet saytları yenidən işlənilmiş, "Kanal-35" televiziyasında yeni avadanlıq quraşdırılmış, kütləvi informasiya vasitələrinin yüz minlərlə izləyicisi olan aktiv sosial şəbəkə hesabları yaradılmışdır. Ülvi Hüseynli göstərilən diqqətə və etimada görə muxtar respublikanın kütləvi informasiya vasitələrinin əməkdaşları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli demişdir: Naxçıvan mediası bu gün nəinki region, hətta dünya təcrübəsində də nümunəvi bir modeldir. Ona görə də Naxçıvanın iqtisadiyyatı, ordusu, idarəetmə sistemi, ictimai-mədəni mühiti kimi onun mediası da bu gün nümunə göstərilir. Ötən müddətdə jurnalistlərlə dəfələrlə görüşən, onları mükafatlandıran, qayğı və problemlərini həll edən, kütləvi informasiya orqanlarının inkişafı ilə əlaqədar müşavirələr keçirən, tapşırıq və tövsiyələrini verən Ali Məclisin Sədri həm də bu sahədə yüzlərlə qələm sahibinin yetişib formalaşmasının əsas səbəbkarı və himayədarıdır. Naxçıvan mediasının, eləcə də Naxçıvan teleradiosunun inkişafı tam planlı şəkildə və uğurla həyata keçirilir. Etiraf etmək lazımdır ki, müstəqilliyin ilk illərində zəif olan mediamız həyata keçirilən bu qətiyyətli tədbirlər nəticəsində öz gücünü xeyli artıraraq vacib bir ideoloji vasitəyə çevrilib.

"Şərq qapısı" qəzetinin baş redaktoru Mehriban Sultanova demişdir: Bu gün "Şərq qapısı" qəzetinin maddi-texniki bazası xeyli gücləndirilmişdir. Əməkdaşlar üçün yaradılan şərait daha oxunaqlı qəzet nəşrinə imkan verir. Çalışırıq ki, qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilsin, mətbuat ictimai fikrin əsas vasitəsinə çevrilsin. İstər müasir avadanlıqlar, istərsə də geniş yaradıcılıq imkanları jurnalistlərə muxtar respublikanın bugünkü inkişafının təbliğatçısı olmağa əsas verir. Qəzetdə yeni rubrikaların açılması, gənc əməkdaşların işə qəbul olunması, internet saytının yenilənməsi oxucuların sayını xeyli artırmışdır.

Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin İnformasiya təminatı və saytlarla iş redaksiyasının baş redaktoru Səməd Canbaxşıyev minnətdarlıq edərək demişdir ki, Naxçıvanda istər teleradio və qəzet, istərsə də internet jurnalistikası sahəsində böyük təcrübə vardır. Bir zamanlar çəkilişlərdə kamera və digər avadanlıqlar çatışmırdı. Lakin bu gün Naxçıvan televiziyasında çəkilişlər ən yüksək keyfiyyətlə aparılır. Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun müşahidə şurasının üzvü kimi təklif edirəm ki, 2020-ci ildə milli mətbuatımızın yaranmasının 145 illiyi münasibətilə jurnalistlər arasında yaradıcılıq müsabiqəsi keçirilsin.

Televiziya və Radio Şurasının üzvü Sara Əzimova demişdir: Ötən əsrin 90-cı illərinin əvvəllərinə nəzər salsaq görərik ki, o zamanın jurnalistləri Naxçıvanın problemlərini mətbuat səhifələrində daha çox qabardırdılar. Bu gün isə jurnalistlər Naxçıvanın inkişafını, tərəqqisini təbliğ edirlər. Eyni zamanda dünyanın müxtəlif ölkələrindən gələn jurnalistlər də muxtar respublikanın inkişafından ürəkdolusu söz açırlar. Təbii ki, bütün bunların səbəbi yaradılan müasir şəraitdir.

Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Müəllif proqramları və xüsusi layihələr redaksiyasının baş redaktoru Ruhiyyə Rəsulova demişdir: Bu gün televiziyada çalışanların əksəriyyətini gənclər təşkil edir. Fəaliyyət göstərdiyim redaksiya bu il efirə milli dəyərlərimiz, tariximiz, turizm potensialımız və digər mövzularda 6 yeni layihə təqdim etmişdir. Bugünkü görüş də yeni layihələrin başlanğıcı kimi mühüm əhəmiyyət kəsb edir. Çalışacağıq ki, qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilsin.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov mətbuata göstərilən qayğıdan danışmış, muxtar respublikada bütün sahələrdə qazanılan inkişafı "Vətən oğlu" şeiri ilə ifadə etmişdir:

*Vətənim yetirib bir oğul daha,*
*Yaşayır qəlbində el məhəbbəti.*
*Onun çağırışı ilə xalqım bir olub,*
*Göylərə qaldırıb bu məmləkəti.*

Ardı 2-ci səhifədə




*Naxçıvan memarlıq məktəbimizin,*
*Ən böyük memarı, ustadı odur.*
*Onun tutduğu yol ulu Heydərin,*
*Nurlu ideyası, nurlu yoludur.*

*Bu yolda çox şeylər qazanmışıq biz,*
*Əmək meydanında uğur, qələbə,*
*Tikdiyi, qurduğu yadigarları*
*Xoş gəlir ürəyə, xoş gəlir qəlbə.*

*Bu qədim diyarın hər guşəsində,*
*Onun öz ilməsi, naxışları var.*
*Tikdiyi körpülər, tikdiyi yollar,*
*Sənət incisi tək könüllər oxşar.*

"Nuh yurdu" qəzetinin redaktoru Qafar Qənbərov demişdir ki, Naxçıvan mətbuatı böyük inkişaf yoluna qədəm qoyub, biz jurnalistlər üçün hər bir şərait yaradılıb. Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da bu qayğının bariz nümunəsidir. Fondun müşahidə şurasının üzvü kimi təklif vermək istəyirəm ki, mətbuatda ziyalı sözünə, ziyalı fikrinə böyük ehtiyac var. Kütləvi İnformasiya Vasitələrinin əməkdaşları ilə ziyalıların görüşünü təşkil etmək bu baxımdan səmərəli olar.

Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Sənədli filmlər və dublyaj redaksiyasının baş redaktoru Müzəffər Əsgərov demişdir: Dövlət Televiziya və Radio Verilişləri Komitəsində yaradılan şərait işimizin səmərəsini xeyli artırır. Son dövrlər televiziyada yüzdən çox film istehsal olunub ki, bunların əksəriyyəti ölkəmizin və dünyanın müxtəlif telekanallarında yayımlanır. Bu il Naxçıvan təbiəti ilə bağlı hazırladığımız "Zəngəzur dağları" filmini Amerika Birləşmiş Ştatlarının və Türkiyənin məşhur kanallarına təqdim etməyi nəzərdə tuturuq.

"Şərq qapısı" qəzetinin baş redaktor müavini Rauf Əliyev minnətdarlıq etmiş və bildirmişdir ki, qəzetlərdə təcrübəli jurnalistlərin iştirakı ilə seminar-treninqlərin keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Qeyd olunmuşdur ki, bu gün muxtar respublika dünya əhəmiyyətli tədbirlərin keçirildiyi mühüm informasiya məkanına çevrilib. Türk dünyasının mərkəzi sayılan qədim və müasir Naxçıvanın davamlı inkişafı jurnalistlər üçün tükənməz mövzu mənbəyidir.

İctimai Televiziya və Radio Yayımları Şirkətinin Naxçıvan Muxtar Respublikası üzrə bölgə müxbiri Qahirə Hüseynova demişdir: Muxtar respublika mətbuatı çətin inkişaf dövründən keçib. Lakin ulu öndərin Naxçıvandan başlatdığı xilaskarlıq missiyası digər sahələrlə yanaşı, mətbuatı da əhatə etmişdir. Bu gün həyata keçirilən tədbirlər kütləvi informasiya vasitələrində keyfiyyət dəyişikliklərinin yaranması ilə müşahidə olunur. Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da bu sahədə görülən işlərin davamı kimi böyük əhəmiyyətə malikdir.

"Şərqin səhəri" qəzetinin redaktoru Muxtar Rzazadə demişdir: Naxçıvan mətbuatının bugünkü inkişafı şəhər və rayon qəzetləri üçün də geniş fəaliyyət imkanları açıb. "Şərqin səhəri" qəzeti də hər cür şəraiti olan müasir binada yerləşir. Mətbuata qayğı gənc jurnalistlərin yetişməsi sahəsində də uğurların qazanılmasına səbəb olmuşdur. Ali Məclis Sədrinin Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması barədə imzaladığı müvafiq Fərman uzaq gələcəyə hesablanmış mühüm dövlət sənədidir. Muxtar Rzazadə göstərilən qayğıya görə gənc jurnalistlər adından minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun müşahidə şurası tərəfindən təkliflərin nəzərə alınması və icrası barədə tapşırıqlar vermişdir.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyi dövründə kütləvi informasiya vasitələrinin inkişafına böyük qayğı göstərmişdir. Teleradio və qəzetlərin maddi-texniki bazası gücləndirilmiş, bu sahədə zəngin qanunvericilik bazası yaradılmış, jurnalistlərin sərbəst yaradıcılıq imkanları təmin edilmişdir. Dahi şəxsiyyətin müəyyənləşdirdiyi mətbuata dövlət qayğısı ənənəsi bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir.

Naxçıvan Muxtar Respublikasında da kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün lazımi şərait yaradılmış, informasiya təhlükəsizliyi təmin olunmuşdur. Güclü maddi-texniki baza və hərtərəfli yaradıcılıq imkanı, bütün yaşayış məntəqələrinin fiber-optik kabel xətti və sürətli internetlə, İP televiziya və rəqəmsal yayımla təmin olunması informasiya-məlumatlandırma işinin səmərəliliyini xeyli artırmışdır. Bu gün muxtar respublikada universitet televiziyası və radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio, "Şərq qapısı" qəzeti, şəhər və rayon qəzetləri, ali təhsil və elm müəssisələrinin qəzet və jurnalları, Nuhçıxan İnformasiya Agentliyi, Naxçıvan Mətbuat Şurası, Televiziya və Radio Şurası fəaliyyət göstərir, ümumilikdə, kütləvi informasiya vasitələrində çalışanların sayı 400-ə yaxındır. Jurnalistlərin sosial məişət şəraiti yaxşılaşdırılır, əməkhaqları artırılır.

Ali Məclisin Sədri demişdir: Sosial-iqtisadi inkişaf, ictimai həyatın bütün sahələrinin yeniləşdirilməsi cəmiyyətin informasiyaya olan tələbatının daha dolğun ödənilməsini, kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşdirilməsini zəruri edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 19 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da muxtar respublikanın mətbuat tarixində yeni inkişaf mərhələsinin əsasını qoymuşdur. Fondun fəaliyyətinin təmin olunması kütləvi informasiya vasitələrində keyfiyyət dəyişiklikləri ilə müşahidə olunmalıdır. Qarşıda mühüm vəzifələr durur.

Ali Məclisin Sədri kütləvi informasiya vasitələrinin qarşısında duran vəzifələrdən danışaraq demişdir: Ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu dövlət müstəqilliyimizi möhkəmləndirmək, Azərbaycanımızın və muxtar respublikamızın inkişafında yaxından iştirak etmək hər bir jurnalistin birinci vəzifəsidir. Kütləvi informasiya vasitələri öz işlərini bu tələblərə uyğunlaşdırmalı, vətənpərvərlik əsas fəaliyyət istiqaməti olmalıdır. Həyata keçirilən islahatların, yaradılan güclü maddi-texniki bazanın əsas məqsədi tamaşaçı və dinləyicilərə yüksək səviyyəli proqramlar təqdim etməkdən, oxunaqlı qəzet nəşrinə nail olmaqdan ibarətdir. Auditoriyanın marağının nəzərə alınması, balanslaşdırılmış proqram siyasəti, yüksək efir mədəniyyəti, ictimai maraqlara xidmət, hadisələrə operativ və obyektiv münasibət bildirmək hər bir əməkdaşın qarşısında duran başlıca vəzifədir. Normativ-hüquqi aktların, qəbul olunmuş dövlət proqramlarının icrası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi, "Şərq qapısı", şəhər və rayon qəzetləri tərəfindən mütəmadi izlənməli, bununla bağlı maarifləndirici və analitik materiallar hazırlanmalıdır.

Ali Məclisin Sədri demişdir: Bu gün Naxçıvan Dövlət Televiziyası və Radiosu, eləcə də "Şərq qapısı" qəzeti həm də internetdə yayımlanır. Nuhçıxan İnformasiya Agentliyinin saytında gün ərzində davamlı informasiyalar, videomateriallar və müəllif yazıları yerləşdirilir. Bu, informasiyaların daha geniş kütləyə çatdırılması baxımından əhəmiyyətli olsa da, eyni zamanda böyük məsuliyyət deməkdir. Təqdim olunan materiallar elə hazırlanmalıdır ki, onlar oxucu, tamaşaçı, dinləyici və izləyici toplaya bilsin. Naxçıvan Dövlət Televiziyasının, Nuhçıxan İnformasiya Agentliyinin və "Şərq qapısı" qəzetinin saytları, eləcə də rayon qəzetlərinin sosial şəbəkələrdəki səhifələri mütəmadi yenilənməli, informasiya yükü artırılmalı, Naxçıvanın təbliği və tanıdılması sahəsindəki fəaliyyət gücləndirilməlidir. Hər bir xalqın milli kimliyini təsdiq edən onun folkloru, min illər ərzində formalaşan adət-ənənələridir. Kütləvi informasiya vasitələrində hər fəsilə uyğun folklor və etnoqrafik materialların hazırlanması diqqətdə saxlanılmalı, milli dəyərlərimiz təbliğ edilməli, bu məqsədlə yeni telelayihələr işlənilməli və qəzet rubrikaları açılmalıdır.

Mətbuatın inkişafından danışarkən kadr hazırlığı məsələsi xüsusilə qeyd olunmalıdır. Çünki keyfiyyət dəyişikliyinə yalnız peşəkar kadr təminatı yaratmaqla nail olmaq mümkündür. Bu səbəbdən də Dövlət Televiziya və Radio Verilişləri Komitəsi, eləcə də "Şərq qapısı" qəzeti Jurnalistika ixtisası tələbələrinin teleradio və qəzetlərdə fəaliyyətinə hərtərəfli şərait yaratmalı, istedadlı gənclər seçilərək işə götürülməli, hamiliklə bağlı verilən tapşırıqlar icra olunmalı, təkmilləşdirmə kursları və ustad dərsləri keçirilməlidir. Naxçıvan Dövlət Universitetinin Media Mərkəzinin imkanlarından səmərəli istifadə olunmalı, nəzəri biliklərlə yanaşı, praktik işə də diqqət artırılmalı, tələbə-jurnalistlərdə ilkin peşə vərdişləri formalaşdırılmalıdır.

Ali Məclisin Sədri demişdir: Teleradio və qəzetlər yalnız jurnalistlərin yaradıcılıq sahəsi olmamalıdır. Çünki kənar müəllif imzası, ziyalı sözü yoxdursa, onda mətbuatın, televiziyanın ictimai tribuna kimi funksiyasından da danışmaq olmaz. Kənar müəlliflərin qəzet və teleradiolarla əməkdaşlığa cəlbi diqqətdə saxlanılmalı, müsahibələrə, ziyalı sözünə geniş yer verilməli, ictimaiyyət düzgün istiqamətləndirilməlidir. Media ictimai fikrə təsir göstərən qüdrətli vasitədir. Ona görə də teleradio və qəzetlər vətəndaş cəmiyyəti quruculuğunda fəal iştirak etməlidirlər. Jurnalistlər ictimai nəzarətçi kimi öz fəaliyyətləri ilə cəmiyyətin inkişafına töhfə verməli, seçilən mövzu və hazırlanan materiallar ümumi işə kömək göstərməlidir. Müasir informasiya cəmiyyəti quruculuğunda qarşıda duran əsas məsələlərdən biri də dövlət orqanlarının mətbuat xidmətləri ilə kütləvi informasiya vasitələri arasında əlaqələrin yaradılmasıdır. Ali Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi mətbuat xidmətləri ilə işə diqqəti daha da artırmalı, onların fəaliyyəti təhlil olunmalı, mətbuat xidmətləri tərəfindən aylıq və rüblük arayışlar, analitik materiallar hazırlanaraq kütləvi informasiya vasitələrinə təqdim edilməli, qurumların internet saytları mütəmadi yenilənməli və informasiya yükü artırılmalıdır.

Qeyd olunmuşdur ki, yaşadığımız dövrdə kütləvi informasiya vasitələrinin maarifləndirmə funksiyasının gücləndirilməsi zərurətə çevrilmişdir. Bu səbəbdən də maarifləndirici materialların həcmi və keyfiyyəti daim diqqətdə saxlanılmalıdır. Gənclik böyük qüvvədir. Sağlam gənclik isə həm də ölkənin gələcək təminatıdır. Bu mənada, kütləvi informasiya vasitələrində gənclərin milli mənlik şüurunun inkişafına, ən əsası isə onlarda hərbi-vətənpərvərlik tərbiyəsinə xidmət edən veriliş və yazıların həcmi artırılmalı, tədrisyönümlü proqramların keyfiyyətinə diqqət yetirilməli, oxunması zəruri olan kitablar geniş təbliğ olunmalıdır. Muxtar respublikanın hər bir rayonunda ailə təsərrüfatları fəaliyyət göstərir. Bu gün onların fəaliyyətinin təbliğ olunması və nümunə gücündə verilməsi vacib məsələdir. Teleradio və qəzetlərdə, informasiya agentliyində və sosial şəbəkələrdə ailə təsərrüfatları barədə yazılar verilməli, müsahibələr alınmalı, nümunəvi ailə təsərrüfatlarının fəaliyyəti təbliğ olunmalıdır.

Diqqətə çatdırılmışdır ki, qədim və zəngin tarixi-mədəni irsi, dünya əhəmiyyətli abidələri, təbii müalicə mərkəzləri, müasir inkişafı və mövcud sabitlik Naxçıvana marağı artırmış, turizmin inkişafı üçün geniş imkanlar açmışdır. Turist təşviqi isə informasiya-məlumatlandırma və təbliğat işinin düzgün qurulmasından asılıdır. Bu işdə teleradio və qəzetlərin, eləcə də Nuhçıxan İnformasiya Agentliyinin və sosial şəbəkələrin imkanlarından geniş istifadə edilməli, jurnalistlər tarixi-mədəni irsimizin, milli dəyərlərimizin və Naxçıvanın müasir inkişafının təbliğatçısı olmalıdırlar. Gələcək tədqiqatçılar üçün bugünkü mətbuat əsas mənbələrdən biri olacaqdır. Odur ki, qəzetlərdə bu günümüzün tarixi olduğu kimi yazılmalı, muxtar respublikada gedən quruculuq işləri, aparılan sosial-iqtisadi islahatlar geniş əksini tapmalıdır. Jurnalistlər Naxçıvanın müasir quruculuq salnaməsini yaratmalı, kəndlərdən verilişlər, teleetüdlər hazırlanaraq təqdim olunmalıdır. Müasir dövrdə internet mediası və sosial şəbəkələr istənilən sahədə ictimai fikri yönləndirən əsas vasitəyə çevrilib. Sosial şəbəkələrdə yayılan məlumatlar qısa müddətdə böyük ictimai rəy formalaşdırır. Ona görə də jurnalistlər sosial şəbəkələrin imkanlarından məqsədyönlü istifadə etməlidirlər.

Ali Məclisin Sədri demişdir: İctimaiyyətə çatdırılan hər bir informasiya dəqiq və əsaslı olmalıdır. Jurnalist peşəkarlığının əsas şərti də onun mötəbər mənbələrə istinad etməsindədir. Muxtar respublikada tarix, mədəniyyət, sosial-iqtisadi inkişaf və milli dəyərlərlə bağlı yüzlərlə kitab və ensiklopediya nəşr olunub. Jurnalistlər hər hansı mövzuya müraciət edərkən etibarlı mənbə kimi bu kitablara əsaslanmalı, yeri gəldikdə aid qurumlara sorğular göndərilməli, mütəxəssis rəyi öyrənilməli, ictimaiyyətə düzgün məlumatlar təqdim edilməlidir. "Şərq qapısı", şəhər və rayon qəzetləri, eləcə də Nuhçıxan İnformasiya Agentliyi ən müasir fotoaparatlarla təmin olunublar. Lakin etiraf edək ki, fotojurnalistika işi hələ də tələb olunan səviyyədə deyil. Bu sahədəki nöqsanlar qısa müddətdə aradan qaldırılmalı, yaradıcı əməkdaşlar işə cəlb olunmalıdır. Təcrübə göstərir ki, qarşılıqlı yaradıcılıq əlaqələri teleradio və qəzetlərin fəaliyyətinə müsbət təsir göstərir. Muxtar respublikanın kütləvi informasiya vasitələri bu ənənəni davam etdirməli, ölkə və dünya mediası ilə səmərəli əməkdaşlıq qurulmalıdır.

Qeyd olunmuşdur ki, Televiziya və Radio Şurası və Naxçıvan Mətbuat Şurası müəyyənləşdirilən vəzifələrin teleradio və qəzetlərdə icrasına nəzarət etməli, təhlilli monitorinq məlumatları və hesabatlar hazırlamalı, səlahiyyətləri daxilində üzərlərinə düşən vəzifələri uğurla yerinə yetirməli, yaradıcı işə köməklik göstərməlidirlər. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yaradılan müasir texniki imkanlardan, quraşdırılan çap avadanlıqlarından səmərəli istifadə olunmalıdır. Çap işinin keyfiyyəti və çeşidi artırılmalı, nəşriyyat-poliqrafiya işi ilə bağlı yeni təkliflər verilməlidir.

Ali Məclisin Sədri demişdir: Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun fəaliyyəti qısa müddətdə təmin edilməli, yeni layihələr hazırlanmalı və müsabiqələr keçirilməli, dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlıq gücləndirilməlidir. Jurnalistlərin peşə davranış qaydaları ilə bağlı tövsiyələr hazırlanmalı, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən kütləvi informasiya vasitələri haqqında informasiya bankı yaradılmalıdır. Fondun müşahidə şurası qanunvericiliyə uyğun olaraq ona həvalə edilmiş vəzifələrin icrasında məsuliyyəti artırmalı, teleradio və qəzetlərin fəaliyyəti ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə məlumat verməlidir.

"Bu gün qarşıda duran əsas vəzifə ondan ibarətdir ki, kütləvi informasiya vasitələrinin yaradıcı gücü ulu öndər Heydər Əliyevin müəllifi olduğu müstəqil Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişafına yönəlsin", – deyən Ali Məclisin Sədri dahi rəhbərin ***"Hər bir kütləvi informasiya vasitəsi müstəqil dövlət, vətəndaş cəmiyyəti quruculuğu, milli və dünyəvi dəyərlərin bərqərar olunması, ölkənin inkişafını təmin edən islahatların həyata keçirilməsi prosesində effektiv iştirak etməli, həyatın güzgüsü, həqiqət carçısı olmalıdır. İnsanları yüksək ideallar, humanist vətəndaş və demokratik cəmiyyət uğrunda mübarizəyə çağırmalı və səfərbər etməlidir"***, – fikirlərini diqqətə çatdırmış, bu yolda kütləvi informasiya vasitələrinin əməkdaşlarına uğurlar arzulamışdır.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## “Elektron məhkəmə” informasiya sisteminin təqdimatı olub



*Dünən Naxçıvan Şəhər Məhkəməsində “Elektron məhkəmə” informasiya sisteminin təqdimatı keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri, ixtisaslaşdırılmış, rayon (şəhər) məhkəmələrinin sədr və hakimləri, Ədliyyə Nazirliyinin İcra və Probasiya şöbəsinin əməkdaşları, rayon (şəhər) İcra və Probasiya şöbə və bölmələrinin rəisləri iştirak ediblər.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması istiqamətində ölkəmizdə həyata keçirilən genişmiqyaslı məhkəmə-hüquq islahatlarından bəhs edib.

“Elektron məhkəmə” informasiya sisteminin əhəmiyyəti barədə məlumat verən Ali Məhkəmənin sədri bildirib ki, bu sistem əhatəli olmaqla özündə 130 milyona yaxın məlumatı əks etdirir, mürəkkəb mexanizmləri ehtiva edir və çoxsaylı komponentlərdən ibarətdir. Məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarlarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edən bu sistemin tətbiqi ədalət mühakiməsinə ictimai etimadı artırır, vətəndaşların, o cümlədən sahibkarlıq subyektlərinin məhkəmələrə elektron qaydada onlayn rejimdə daha asan və rahat müraciət etməyinə imkan verir, məhkəmə baxışını tezləşdirir. Sistem bütün məhkəmə instansiyalarını və növlərini vahid sistemdə birləşdirir, prosesləri sürətləndirir, qanunvericiliyin tələblərinə uyğun çoxsaylı hesabatlar hazırlayır və məhkəmə qurumlarının fəaliyyətini qiymətləndirməyə yardım edir. Hazırda 800-dən çox sənəd növü əvvəlcədən tərtib edilmiş şablonlara əsasən avtomatik olaraq yaradıla bilər ki, bu da vaxta qənaət baxımından olduqca əhəmiyyətlidir.

Qasım Əliyev qeyd edib ki, icra orqanlarının fəaliyyətinin effektivliyinin artırılması, bu sahədə operativliyin və şəffaflığın təmin olunması məqsədilə “Elektron icra” sistemi yaradılaraq tətbiq olunur. Sistem icra sənədlərinin elektron qeydiyyatını aparır, icra qurumları ilə məhkəmələr arasında kağızsız əlaqələrin qurulmasına, icra işinə elektron nəzarətin həyata keçirilməsinə, müxtəlif dövlət qurumlarının informasiya sistemləri ilə qarşılıqlı məlumat mübadiləsinin aparılmasına imkan verir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə muxtar respublikada məhkəmələrin hər biri üçün müasir inzibati bina və iş şəraiti yaradıldığını bildirib. Qeyd edib ki, Ali Məclis Sədrinin təşəbbüsü ilə 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” Fərmanda məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti üçün zəruri şəraitin yaradılması nəzərdə tutulub. Həmin fərmanın və digər hüquqi aktların qəbulu və icrası, habelə göstərilən dövlət qayğısı nəticəsində məhkəmə orqanları müasir texnoloji vasitələrlə və iş şəraiti ilə təmin olunub. Görülən işlərin nəticəsidir ki, muxtar respublikanın məhkəmələri “Elektron məhkəmə” informasiya sisteminin tətbiqinə çoxdan hazır idi.

Cəlil Rüstəmov bildirib ki, sistemin istifadəsi insanların məhkəməyə yeni və daha rahat üsullarla müraciət etmək imkanı yaratmaqla yanaşı, həm də vaxt itkisinin qarşısını alır. Bu da məhkəmələrə ictimai etimadı gücləndirir. Həmçinin sistem istənilən hesabatı qısa vaxt ərzində hazırlamağa imkan verir ki, bu da məhkəmə statistikasının vaxtında aparılmasına, zəruri ümumiləşdirmələr hazırlanmasına şərait yaradır. Hakimlər və məhkəmə aparatının bütün işçiləri sistemdən səmərəli istifadə etməli, yaradılanları qorumalı, bu sahəyə ixtisaslı mütəxəssislər cəlb olunmalıdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri Suliddin Əliyev, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi “Elektron məhkəmə” İnformasiya Sistemi üzrə İşçi Qrupunun rəhbəri, Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının prezidenti, hakim Ramin Qurbanov “Elektron məhkəmə” informasiya sisteminin imkanları və səmərəliliyi barədə danışıblar.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin müdiri Cahan Bayramova “Elektron məhkəmə” informasiya sisteminin iş prinsipi, sistemdən istifadə qaydaları və sistemin üstünlükləri, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin İcra və Probasiya şöbəsinin rəisi Emin Kazımov “Elektron icra” sisteminin funksiyaları, sistemdən istifadə qaydaları barədə təqdimatlarla çıxış ediblər.

Tədbirdə mövzu ətrafında müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

Sonda tədbir iştirakçıları “Elektron məhkəmə” informasiya sisteminin iş prinsipi ilə tanış olub, proses iştirakçılarının SMS vasitəsilə məlumatlandırılması sistemi əyani şəkildə iştirakçılara göstərilib.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məhkəməsinin mətbuat xidməti**

## Rusiya-Azərbaycan gənclərinin VII forumu



*Sentyabrın 22-25-də Rusiyanın Sankt-Peterburq şəhərində Rusiya-Azərbaycan gənclərinin VII forumu keçirilmişdir.*

Azərbaycandan, ümumilikdə, 25 gəncin qatıldığı forumda “Gənclərin yaradıcı inkişafı üçün beynəlxalq layihələr. Mədəniyyət və mədəniyyətlərarası dialoqun təşviqi”, “Gənclər üçün biznes. Sosial sahibkarlıq”, “Qeyri-formal təhsil və gənclərin QHT-lərinin bu istiqamətin inkişafındakı rolu”, “Davamlı inkişaf məqsədləri”, “Müasir media məkanı” üzrə sessiyalar təşkil edilmişdir.

Sessiyalarda iştirak edən gənclər tərəfindən Rusiya-Azərbaycan gəncləri arasında əməkdaşlığın inkişafı üçün birgə təkliflər səsləndirilmiş, beynəlxalq əməkdaşlığa dair fəaliyyət planı hazırlanmış, eyni zamanda, forumun yekunu olaraq bəyannamə qəbul olunmuşdur.

Həmçinin forum iştirakçıları ümummilli lider Heydər Əliyevin Sankt-Peterburq şəhərindəki Milli Təhlükəsizlik Orqanları məktəbinin binasından asılmış xatirə barelyefi, “Müharibə uşaqları”, böyük Azərbaycan şairi Nizami Gəncəvinin abidəsini, eyni zamanda II Dünya müharibəsində həlak olmuş döyüşçülərin dəfn edildikləri Piskaryov memorial qəbiristanlığını ziyarət etmişlər.

Forumda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin aparat rəhbəri Tahir Məmmədli iştirak və çıxış etmişdir. O, hazırlanmış slayd vasitəsilə Naxçıvan Muxtar Respublikasında son dövrlər görülən işlər, muxtar respublikanın turizm məkanları, qədim diyarda həyata keçirilən dövlət gənclər siyasəti, gənclər üçün yaradılmış şərait, onlara göstərilən dövlət qayğısı haqqında geniş məlumat vermişdir. Çıxış və təqdimat forum iştirakçıları tərəfindən maraqla qarşılanmışdır.

**Naxçıvan Muxtar Respublikası Gənclər**
**və İdman Nazirliyinin mətbuat xidməti**

## “Araz-Türk Cümhuriyyəti” elmi-tədqiqat qrupunun ilk iclası keçirilmişdir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Araz-Türk Cümhuriyyətinin fəaliyyətinin tədqiq edilməsi haqqında” 2019-cu il 24 sentyabr tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birgə keçirdiyi yığıncaqda “Araz-Türk Cümhuriyyəti” elmi-tədqiqat qrupunun üzvləri müəyyənləşmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının və “Araz-Türk Cümhuriyyəti” elmi-tədqiqat qrupunun üzvləri filologiya üzrə fəlsəfə doktoru Surə Seyid və akademik İsmayıl Hacıyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun elmin inkişafına xidmət edən tarixi sərəncamlarının əhəmiyyətindən və qarşıda duran vəzifələrdən bəhs etmişlər.

“Araz-Türk Cümhuriyyəti” elmi-tədqiqat qrupunun ilk iclasında bu cümhuriyyətin yaranması zərurəti, fəaliyyəti, siyasi əhəmiyyəti müzakirə olunmuş, tədqiqatın sistemli araşdırılması üçün qrup üzvləri arasında vəzifə bölgüsü aparılmışdır. Qeyd olunmuşdur ki, tədqiqat qrupunun üzvləri milli dövlətçilik tariximizdə xüsusi yer tutan Araz-Türk Cümhuriyyətinin fəaliyyətini elmi əsaslarla öyrənməli, tarixi mənbələrə, arxiv materiallarına, əlyazmalara istinad olunmalı, faktlar ümumiləşdirilərək yekun rəy əsasında elmi nəşrdə öz əksini tapmalıdır.

## Görkəmli alimin 70 illik yubileyi qeyd edilib



***AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Fəxrəddin Səfərlinin 70 illik yubileyi qeyd olunub.***

Bu münasibətlə AMEA Naxçıvan Bölməsində keçirilən tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək alimin həyat yolu və fəaliyyətindən söhbət açıb. Bildirib ki, Fəxrəddin Səfərli 29 sentyabr 1949-cu ildə Babək rayonunun Cəhri kəndində anadan olub və ilk təhsilini də elə burada alıb. O, 1971-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialının Tarix fakültəsini bitirdikdən sonra Cəhri kənd tam orta məktəbində müəllim kimi fəaliyyətə başlayıb.

Qeyd olunub ki, 2007-ci ildə AMEA Naxçıvan Bölməsində fəaliyyətə başlayan alimin gərgin əməyi nəticəsində muxtar respublika ərazisindəki epiqrafik abidələr ilk dəfə olaraq sistemli şəkildə tədqiq olunub. 600-dən artıq epiqrafik abidə qeydə alınıb, onların estampları, fotosu, ölçüsü götürülüb, mətnləri oxunaraq Azərbaycan dilinə tərcümə edilib. Kitabələrin əksəriyyəti ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilib.

Diqqətə çatdırılıb ki, alimin apardığı tədqiqatlar nəticəsində orta əsrlər zamanı Naxçıvanda yaşamış bir sıra görkəmli şəxsiyyətlərin, o cümlədən dövlət xadimlərinin, sənətkarların, alimlərin adları, məzarüstü abidələri müəyyənləşdirilib. Həmçinin muxtar respublika ərazisində günümüzədək gəlib çatan müxtəlif türk-islam mədəniyyəti abidələri, o cümlədən məscidlər, mədrəsələr, türbələr, imamzadələr, hamamlar və buzxanaların da tədqiq olunması məhz alimin adı ilə bağlıdır. Onun tədqiqat əsərləri Rusiya, Bolqarıstan, Türkiyə, İran, Ukrayna və başqa xarici ölkələrdə nəşr edilib.

Alimin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Əməkdar elm xadimi” fəxri adına, AMEA Rəyasət Heyətinin fəxri fərmanına layiq görülüb. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə buraxılan “Xatirə” qızıl medalı ilə təltif edilib.

Sonra İsmayıl Hacıyev çoxillik və səmərəli fəaliyyətinə görə Fəxrəddin Səfərliyə bölmənin fəxri fərmanını təqdim edib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid, Naxçıvan Müəllimlər İnstitutunun rektoru, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev, bölmənin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev və Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Emin Şıxəliyev alimi 70 illik yubileyi münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıblar.

Sonra yubilyar əməyinə verilən yüksək qiymətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Qeyd edək ki, yubiley münasibətilə alimin əsərlərindən ibarət sərgi də təşkil edilib.

**Xəbərlər şöbəsi**

## Səyyar kollegiya iclası



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi sentyabrın 27-də Şahbuz Rayon Mərkəzi Xəstəxanasında səyyar kollegiya iclası keçirib. Tədbirdə 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə edilib.

Səhiyyə naziri Niyazi Novruzov bildirib ki, bütün sahələr kimi, səhiyyə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə əhatə olunub. Aparılan səhiyyə quruculuğunun təkcə rayon mərkəzlərini deyil, eyni zamanda ucqar dağ kəndlərini də əhatə etməsi əhalinin sağlamlığının yüksək səviyyədə qorunmasına əlverişli şərait yaradıb. Tikilən və ya əsaslı şəkildə yenidən qurulan səhiyyə müəssisələrinin müasir istilik sistemi ilə təchiz olunması payız-qış mövsümündə onların fasiləsiz fəaliyyətini təmin edib. 2019-cu ildə aparılan tikinti-quruculuq işləri başa çatdırıldıqdan sonra şəhər və rayon səhiyyə müəssisələri də daxil olmaqla, qış mövsümündə 83 tibb müəssisəsi fərdi, 116 müəssisə isə mərkəzi istilik sistemi, digər 21 müəssisə neft sobası, 5 müəssisə isə təbii qazla qızdırılacaqdır. Ötən il səhiyyə müəssisələrinin 83 faizi istilik sisteminə malik idisə, bu il səhiyyə quruculuğu sahəsində aparılan işlərin nəticəsində bu göstərici 87 faiz təşkil edir. 2019-2020-ci illərin payız-qış mövsümündə istilik sistemi quraşdırılmayan səhiyyə müəssisələrinin fasiləsiz fəaliyyətini təmin etmək üçün onların yanacaq, mal və materiallara olan tələbatı müəyyənləşdirilib.

Qeyd edilib ki, Səhiyyə Nazirliyi Naxçıvan Muxtar Respublikasında sentyabrın 7-də 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə verilmiş tapşırıqların icrasını təmin etmək məqsədilə fəaliyyətini gücləndirəcək, istilik sistemlərində çalışan texniki işçilərin peşə kurslarına cəlbini diqqətdə saxlayacaqdır. Həmçinin yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl edilməsi, xəstəxanalarda elektrik enerjisindən səmərəli istifadə olunması, israfçılığa yol verilməməsi məqsədilə maarifləndirici söhbətlər aparılacaqdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

Kollegiya iclasında digər məsələlər də müzakirə olunub.

Tədbir iştirakçıları Şahbuz Rayon Mərkəzi Xəstəxanasının maddi-texniki bazası ilə də tanış olublar.

**Naxçıvan Muxtar Respublikası**
**Səhiyyə Nazirliyinin**
**mətbuat xidməti**

# Arıçılığın inkişafı diqqət mərkəzindədir



***İnsanlar hələ lap qədimdən Tanrının təbiətə bəxşişi, ən işgüzar canlı kimi bildiyimiz arıların məhsulu olan balı qida kimi sevib, arıçılıqla məşğul olub və onların sirli-möcüzəvi aləmini maraq və diqqətlə izləyiblər. Həttа arıların həyatından bəhs edən kitablar da yazılıb.***

İslam dünyasının müqəddəs kitabı olan "Qurani-Kərim"in 16-cı – "Ən-Nəhl" (Bal arısı) surəsinin 68-69-cu ayələrində belə buyurulur: "Rəbbin bal arısına belə vəhy (təlqin) etdi: "Dağlarda, ağaclarda və (insanların) qurduqları çardaqlarda (evlərin damında, üzümlüklərdə) özünə evlər tik (pətəklər sal). Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla rahat (asanlıqla) get! (Və ya: "Rəbbinin yollarını itaətlə tut"), (O arıların) qarınlarından insanlar üçün şəfa olan müxtəlif rəngli (ağ, sarı, qırmızı) bal çıxar. Şübhəsiz ki, bunda da düşünüb dərk edənlər üçün bir ibrət vardır!" Həqiqətən də, bal arısının istehsal etdiyi məhsul Rəbbimiz tərəfindən insanlar üçün şəfa mənbəyi olaraq yaradılıb.

Qədim zamanlarda qida axtaran insanlar nektarı özləri və yuvada yumurtadan çıxan sürfələr üçün qışa azuqə kimi yığan bal arılarını ilk dəfə gördüklərində dadından heç vaxt imtina edilməyəcək balla tanış oldular. Beləliklə, zaman keçdikcə insanlar bal arısını saxlamağı öyrəndilər və beləcə, arıçılıq yarandı. Tarixi qaynaqlardan məlum olur ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi Naxçıvanda arıçılıq vəhşi arı balı toplamaq, meşə arıçılığı və mütərəqqi arıçılıq kimi inkişafın bütün mərhələlərini keçib. Şahbuz rayonundakı Ballıqaya, Ordubad rayonundakı Arıtəpə və digər ərazilər bu yerlərin qədim arıçılıq məskənləri kimi məşhurlaşdığının göstəricisidir.

Balından, mumundan, hətta zəhərindən həm dərman, həm də şirniyyat kimi istifadə etdiyimiz min bir dərdin dərmanı olan balı hasilə gətirən arılar təbiətin ən zəhmətkeş həşəratlarıdır. Arı körpə uşaq kimidir. Daim qayğı və baxım tələb edir. Belə ki, erkən yazda qışlamadan çıxan arı ailələrinin yeri mütəmadi olaraq dəyişdirilməlidir. Arandakı sahibkarlar arılarını muxtar respublikanın, əsasən, ucqar dağ kəndlərinə köçürürlər. Aranda ən yaxşı vaxt ağacların çiçəkləmə dövrünə düşür. Arılar həm ağacların çiçəklərini tozlayır, bol məhsul üçün şərait yaradır, həm də kifayət qədər şirə toplayırlar. Onların vasitəsi ilə tozlanan ağaclarda məhsuldarlıq 20-40 faiz artır.

Sədərək rayonunun Sədərək kənd sakini uzun illərdir, arıçılıqla məşğul olan İlham Abdullayev deyir ki, müstəqillik qazandıqdan sonra muxtar respublikamızda arıçılığın inkişafına diqqət xeyli artıb. Torpaq kəndlinin özünə verildikdən sonra əkin ərazilərinin xeyli genişləndirilməsi bu sahənin inkişafına müsbət təsir göstərib. Arıların ən çox bal topladığı yonca, taxıl əkinləri artırılıb. Örüş və qoruq sahələrinin çoxalması da arıçılığın inkişafında böyük rol oynayır. Elm sübut edir ki, bir hektar yonca sahəsindən arılar 70-80 kiloqram şirə toplaya bilir.

Şərur rayon Günnüt kənd sakini Fikrət Məmmədovun sözlərinə görə, arı halallığı və təmizliyi sevən canlıdır. Deyir ki, arıçılıqla məşğul olmaq həm də insanı cavan saxlayır. Elə gün olur ki, səhərdən axşamadək arılarla işləyirəm, amma yorulmuram. Mənə görə, ən dadlı bal Naxçıvan balıdır. Azərbaycanın başqa bölgələrində olmuşam. Naxçıvan balının dadını heç yerdə görməmişəm. Bu isə Naxçıvanın əlverişli iqlim şəraiti və təbiəti ilə bağlıdır. Bunun digər bir səbəbi də odur ki, əgər başqa yerlərdə balı mövsüm ərzində bir neçə dəfə süzürlərsə, Naxçıvanda bal süzümü yalnız ildə bir dəfə olur. Az, amma keyfiyyətli. Buna görə də burada istehsal edilən bal tərkibinin zənginliyinə, qidalılığına, müalicəvi əhəmiyyətinə görə digər bölgələrin məhsullarından daha keyfiyyətlidir.

Ordubad rayon Əlahi kənd sakini Yaşar Həbibov uzun illərdir ki, arıçılıqla məşğuldur. Onun sözlərinə görə, balı götürərkən qışlama dövrü üçün keyfiyyətli yem ehtiyatını saxlamaq lazımdır. Qış-yaz dövrü üçün ballı və ballı-güləmli şanların hazırlanmasına əsas gəlir dövrünün birinci yarısından başlanmalıdır. Çünki həmin vaxt arılar yüksəkkeyfiyyətli bal toplayırlar. Qışlama dövrü üçün ehtiyat yemin kifayət qədər olması böyük əhəmiyyətə malikdir. Payız-qış dövrü üçün hər arı ailəsinə tələb olunan yemin çoxu yuvada, bir hissəsi isə anbarda saxlanmalı və ehtiyac olduqda arılara verilməlidir. Hər çərçivəarası arı üçün 2-2,5 kiloqram bal saxlanmalıdır. Başqa canlılardan fərqli olaraq bal arıları qış üçün ehtiyat yem toplayır. Arılar qışa hazırlıq məqsədilə yuvaya vərəmum gətirib, pətəyin açıq hissələrini bağlayır və uçuş bacasını kiçildirlər. Onlar vərəmum vasitəsilə





yuvaüstü taxtanın aralıqlarını bağlayır və çərçivələri pətəyə yapışdırırlar. Arı ailəsi nektar topladığı bütün dövrlərdə qışa hazırlıq məqsədilə yuvanın kənar şanlarında qış üçün ehtiyat yem toplayır. Uçuş bacasının qarşısında yerləşən çərçivələrdə arılar qış topası əmələ gətirir və tədricən yemi yeməklə çərçivənin yuxarı hissəsinə doğru hərəkət edirlər. Şanın həmin hissələrində arı topasının yaratdığı istiliyin təsirindən şanlar və bal yumşaq olur. Belə vəziyyətdə arılar bal gözcüyünün qapağını asanlıqla açırlar. Möhürü açılmış bal yuvanın daxilində olan su buxarını çəkir və istifadə üçün yararlı bir şəkil alır. Nektar gəliri dövrü qurtardıqdan sonra arılar erkək arıları ailədən qovurlar. Yuvadan onların qovulması instinkt əlaməti olmaqla, toplanmış yemə qənaət məqsədi güdür.

Culfa rayonunun Ləkətağ kənd sakini Əliqulu Hacıyevin söhbəti: – Arıçılıq ata-baba sənətidir. Mən özüm 30 ildən artıqdır ki, bu təsərrüfat növü ilə məşğulam. Bir müddət bu sahəyə olan etinasızlıq, dərman preparatlarının çatışmazlığı ucbatından arı ailələri kütləvi şəkildə tələf olsa da, böyük zəhmət hesabına öz təsərrüfatımı dirçəldə bildim. Əvvəllər kəndimizdə insanlar bu təsərrüfat növü ilə özlərinin bala olan ehtiyaclarını təmin etmək məqsədi üçün məşğul olurdular. Ona görə də hər həyətdə, demək olar ki, 5-dən artıq arı pətəyi saxlanmırdı. Ancaq bu gün dövlətimiz tərəfindən bu təsərrüfat sahəsinə göstərilən diqqət və qayğı sayəsində insanlar arıçılıqla təkcə öz azuqələri üçün deyil, həm də dolanışıq üçün məşğul olurlar.

Müsahibim deyir ki, arıçılıqda ən əsas məsələ xəstəliklərə qarşı dərman preparatlarının olmasıdır. Əgər vaxtında dərmanlama prosesi aparılmazsa, arı ailələri xəstələnər və nəticədə, tələf olarlar. Əvvəllər dərman preparatlarını almaq üçün qonşu ölkələrə getmək məcburiyyətində qalırdıq. Bəzən dərmanları əldə edə bilmirdik. Lakin bu gün muxtar respublikamızda biz arıçılar üçün yaradılan şərait keyfiyyətli məhsul istehsalı ilə yanaşı, arı ailələrinin sayının artmasına da səbəb olub. Təkcə mən son illərdə arı ailələrimi ikiqat artırmağa nail olmuşam. Kredit götürərək arı ailələrini daha da artırmağı planlaşdırıram.

Əliqulu Hacıyev söyləyir ki, arıçılıq zəhmət tələb edən sahədir. Qışlamadan çıxan arıların yazda ilk olaraq pətəklərinə nəzarət olunmalıdır. Hər arı ailəsində bir ana arı olduğu üçün qışdan sonra ola bilər ki, ana arı tələf olsun. Yoxlanışdan sonra mart ayına yuvalar şan və yem ilə təmin edilməlidir. Əgər kifayət qədər yemlə təmin olunmazsa, arılar kütləvi surətdə yemlənməyə çıxar və tələf ola bilərlər. Novruz bayramı ərəfəsinə qədər – yuvanın və pətəklərin təmizliyi və dezinfeksiyası yekunlaşdıqdan sonra arı yeşiklərini aran bölgələrinə aparırıq.

Əvvəlcə arılar aranda olan çiçəklərdən şirə çəkir. Sonra arıları dağətəyi ərazilərə qaytarırıq. May ayının sonunda isə arı ailələrini dağlıq ərazilərə köçürürük. Bu da arıçılar arasında "üçüncü yaz mövsümü" adlanır. Hər bir arıçı bilir ki, yaxşı məhsul əldə etmək üçün hava şəraiti əsas şərtlərdən biridir.

Əliqulu Hacıyev təsərrüfatçılara göstərilən qayğıya görə minnətdarlıq edərək bildirdi ki, bu gün muxtar respublikada arıçılığın inkişafı, eləcə də bu sahədə məhsuldarlığın yüksəldilməsi üçün davamlı tədbirlər görülür. Nəticədə, arıçılara balsüzən dəzgahların, arı pətəklərinin və digər avadanlıqların lizinq yolu ilə verilməsi, arı ailələrinin və arıçılıq məhsullarının çeşidinin artırılması, arıçılıqda xəstəliklərə qarşı mübarizə tədbirlərinin dövlət vəsaiti hesabına pulsuz aparılması keyfiyyətli məhsul istehsalına və bazarın yerli istehsal hesabına təmin olunmasına şərait yaradıb.

Qeyd edək ki, arı ailələrinin artırılması, eləcə də bu sahədə mütəxəssislərin hazırlanması baxımından "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" mühüm rol oynayır. Ölkə Prezidentinin 2018-ci il 5 mart tarixli Sərəncamına əsasən arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə 2018-ci il də daxil olmaqla, 5 (beş) il müddətində ildə 10 (on) manat məbləğində subsidiya müəyyən edilməsi, arıçılıqla məşğul olan sahibkarlara yaradılan şərait, onlara arı almaq üçün verilən kreditlər bu sahənin inkişafına müsbət təsirini göstərib.

Bu gün muxtar respublikada arıçılıqla məşğul olan insanlar yenidən bir araya toplaşıblar. Onlar Naxçıvan şəhərindəki Naxçıvanqalada keçirilən növbəti festivala öz məhsullarını gətiriblər. Muxtar respublika sakinlərinin, diyarımıza gələn qonaqların da iştirak etdikləri festival iki gün davam edəcək, sonda ən keyfiyyətli məhsul sahibləri mükafatlandırılacaq.

**✍ Ramiyyə ƏKBƏROVA**
**✍ Pərviz HACILI**

## Naxçıvanda *"Grassroots"* həftəsi keçirilib



*Avropa Futbol Assosiasiyaları İttifaqının (UEFA) uşaq futbolu ilə bağlı layihəsi – "Grassroots" proqramına əsasən ölkə ərazisində "kütləvi futbol həftəsi" və eyni zamanda proqrama daxil olan "Futboldan həzz al" layihəsi reallaşıb.*

Kütləvi futbol həftəsi paytaxt Bakı və bölgələrlə yanaşı, ilk dəfə olaraq Naxçıvanı da əhatə edib. Məhz bu layihə çərçivəsində Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə muxtar respublika stadionunda 100-dək məktəblinin iştirakı ilə futbol festivalı keçirilib.

Meydanın müxtəlif hissələrində ayrılan, maraqlı və əyləncəli oyunları əhatə edən sektorlarda uşaqlar öz bacarıqlarını nümayiş etdiriblər.

Sonda hər bir məktəbliyə layihəni əks etdirən geyim və toplar hədiyyə olunub.

Qeyd edək ki, layihənin həyata keçirilməsində məqsəd futbolun kütləviliyini artırmaq, uşaqların və yeniyetmələrin asudə vaxtlarının səmərəli təşkili, sağlam həyat tərzini təbliğ etməkdir.

***Naxçıvan Futbol Federasiyasının mətbuat xidməti***

## Federasiyalar arasında turnir

*Naxçıvan Muxtar Respublikası Atıcılıq Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Atıcılıq Federasiyasının təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının üzvləri arasında peyntbol üzrə muxtar respublika birinciliyi keçirilib.*

Birincilikdə 12 federasiyanın hər birindən bir komanda olmaqla, 60 idmançı iştirak edib. Mükafatlandırma mərasimində Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi altında muxtar respublikamızda idman və idmançılara dövlət qayğısının ən yüksək səviyyədə olduğunu, bütün rayon və şəhərlərimizi əhatə edən müasir idman infrastrukturu fonunda, gənc və yeniyetmələrin idmanın müxtəlif növlərinə marağının günü-gündən artdığını bildirib.



Sonra Atıcılıq Federasiyasının sədri Səhət Həbibbəyli çıxış edərək muxtar respublikada atıcılıq idman növünün inkişaf etdirilməsi, bu sahədə kütləviliyin artırılmasına nail olmaq məqsədilə federasiyanın bir sıra tədbirlər həyata keçirdiyini vurğulayıb. Qeyd edib ki, sözügedən idman növünün muxtar respublikada təbliği, rayonlarda da atıcılıq üzrə idman klublarının yaradılması, TİR meydançalarının formalaşdırılması istiqamətində işlər diqqətdə saxlanılır, mütəmadi olaraq idman yarışları keçirilir.

Yarışda Atıcılıq Federasiyasının komandası qalib adını qazanıb. Şahmat Federasiyasının komandası ikinci, Paralimpiya Federasiyasının komandası isə üçüncü olub.

Qalib komandaların üzvlərinə təşkilatçıların diplom, medal, plaket və hədiyyə mərmi kuponları təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Darçınov Nurlan Məhərrəm oğlunun adına olan A-011344 seriya nömrəli zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 656